Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü, 30-cu və 169-cu maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. 61 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Mahmudova Aytəkin Zakir qızının səlahiyyətlərinə 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərin yekunları müəyyən edilənədək müvəqqəti xitam verilsin.

2. Mikayılova Sevinc Hüseyn qızı 42 saylı Sumqayıt ikinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

3. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərinin yekunları müəyyən edilənədək Heybətova İradə Şirin qızı 61 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

4. Abdullayeva Tamilla Əsədulla qızı 42 saylı Sumqayıt seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov